

■ Zirəddin Qafarlı



## DÜŞMƏDİ

O nurlu gün taleyimdən yan keçdi,
Mən bir yana, dağa-daşa düşmədi !
Saçlarıma elə gözəl dən düşdü,
Tək-tək gəldi, gəlib qoşa düşmədi.

Boy atmışam bir boz daşın içindən,
Tez seçildim dost-yoldaşın içindən,
Çox çıxmışam bərkin-boşun içindən,
Kim deyir ki, bərkə-boşa düşmədi?!

Tufanlarda döndü selə bir ömür,
Gələn deyil bir də belə bir ömür,
Ay Zirəddin, sürdün elə bir ömür
Onu qohum-qardaş başa düşmədi!

## ZEYNƏBİM

Bir gün külək vurub sala çiynindən
Uça əllərimə şalı Zeynəbin.
Arıtək qonaydım onun çiyninə,
Tükənmir şəkəri, balı Zeynəbin.

Həyatda solmasın o gül yanağı,
Gəlib həyan olsun dostu, qonağı,
Heç vaxt pozulmasın kefi-damağı,
Dönüb dəyişməsin halı Zeynəbin!

Ona bu gözəllik verilib Haqdan,
Zirəddin, vurğunsan bir gör nə vaxtdan,
Mənim ürəyimə düşübdü çoxdan
Göyçək üzündəki xalı Zeynəbin.

## BU DƏNİZ

Səs eylədim eşitmədi səsimi,
İçindəki o səs-səmir bəsimi?!
Dönüb ondan ümidimi kəsimmi?
Yox, gördüm ki, bir qaladı bu dəniz,
Fikrimi də çalxaladı bu dəniz.

Bezikmişdi qoynundakı qayıqdan,
Fağır - fağır boylanırdı bayaqdan,
Lap büzüşüb üşüyürmüş soyuqdan,
Məni görüb ürəkləndi bu dəniz,
Ləpə-ləpə çiçəkləndi bu dəniz.

Qış ayları bir az dalğın görünür,
Gah çiskinə, gah dumana bürünür,
Sahil boyu uşaq kimi sürünür,
Hərdən hirsli, hərdən şəndi bu dəniz,
İnciyəndi, küsəyəndi bu dəniz.

Sığalladım, əllərimlə oynadı,
Havalandı, coşdu, daşdı, qaynadı,
Təmizlikdə bir güzgüdü, aynadı,
Bir anlığa xumarlandı bu dəniz,
Baxışımla tumarlandı bu dəniz

Şair dostum, dəymə onun xətrinə,
Heyran kəsil ləpə-ləpə sətrinə
Durub bələn həyat dolu ətrinə,
Dərdimizə şərik, təndi bu dəniz
Özü boyda bir vətəndi bu dəniz.

## TEZ GƏL

Tez gəl, könlündə Tanrı,
Haqq - deyə, Haqq - deyə gəl!
İlk görüş yerlərini
Yoxlaya-yoxlaya gəl!

Doğrult məndə gümanı,
Ürəyimə damanı,
Tələs, vaxtı, zamanı
Haqlaya-haqlaya gəl!

Eşqim sənə yol açsın,
Könlüm yenə qol açsın,
Yollarında gül açsın,
Qoxlaya-qoxlaya gəl!

Gəl gör bu dərd-sərimi,
Xeyirimi, şərimi,
O sənsiz günlərimi
Oxlaya-oxlaya gəl!
Tərpət o dumanları,
Yörələri, yanları,
Ötüb keçən anları
Saxlaya-saxlaya gəl!

## QURBAN

Bu həyat gedir hələ də
Bir kəfənə, ağa qurban,
İllər saralan yarpaqdı,
Getmə hər yarpağa qurban!

Heç nə qalan deyil bizə,
Nə verirsə, vurur üzə,
Endiyin dərəyə, düzə,
Qalxdığın o dağa qurban!

Yaşayır qohum da, yad da,
Yaxşılıqlar qalır yadda,
Nəyin varsa bu həyatda
Oğula, uşağa qurban!

Canım, sənsən köçü gedən,
Dönən deyil köçüb gedən,
Ürəyindən keçib gedən
Yaxına, uzağa qurban!

Zirəddin, könlün atlandı,
Adını el-oba andı,
Bu torpaq sənin anandı,
Yatdığın torpağa qurban!

## MƏNDƏ

Bayatı kökündəyəm,
Ağılar yatır məndə,
Uğursuz günümdə də,
Uğurlar yatır məndə.

Bilmərəm sərhəd, çəpər,
Var içimdə bir təpər,
Dərddən ürəyim səpər,
Saygılar yatır məndə.

Qarşımdadır yoxuş, düz,
Bəlkə də, qoydum bir iz,
Dünya boyda tər-təmiz,
Duyğular yatır məndə.

Qocalıb qarımayan,
Heç zaman qurtarmayan,
Varlığına varmayan
Qayğılar yatır məndə.

Gedirəm, çatammıram,
Özümü tapammıram,
Mən yuxu yatammıram, -
Yuxular yatır məndə.

## ÖMRÜMDƏN...

Günlər bir qərar tutmur,
Ötüb keçir ömrümdən.
Axıb gedir tər kimi
Puçur-puçur ömrümdən.

Ha çağırdım - dön bəri,
Dönən deyil gün bəri.
Bu dünyanın günləri
Nələr biçir ömrümdən?..

Gülmür könlümün üzü,
Bitib tükənmir sözü,
Çox ömürlərin gözü
Eh,.. su içir ömrümdən.

Unutdum boş anları,
Dərdə dərd qoşanları,
Ömrümün xoş anları
Quştək uçur ömrümdən.

Qışdan bahardan keçir,
Vaxt gəlib hardan keçir?!
Ömrüm yollardan keçir, -
Yollar keçir ömrümdən...

## ÜRƏYİMLƏ SÖHBƏT

Gələn gündən ömrə-günə salam demişəm,
Mən peşiman olmamışam yarandığıma.
Özbaşına gəlməmişəm, bunu bilmişəm,
Görməsəm də üz tutmuşam Yaradanıma.

Bu həyatda yaşamağım zarafat deyil,
Bilirəm ki, üz-üzəyəm hər an ölümlə.
Dünyanın var-dövlətinə salmadım meyil,
Ömrüm boyu düz gəlmədi içim çölümlə.

Boş adamlar, boş əməllər adam yorandı,
Hərdən xeyir əməlləri şər dayandırır.
Çölümdə bir tufan gəzir, - qardı, borandı,
İçimdəki günəşə bax, adam yandırır.

Harda gördüm əzizlədim gülü, çiçəyi,
Dedim elə mənim ömrüm güldü, çiçəkdi.
Ömrümdən az sevməmişəm axı, heç nəyi,
Küləklər də əllərini telimə çəkdi.

Nə etmişəm, nə görmüşəm, ürəyim, danma,
Sevməzlərin tarix boyu yadam dilində.
Bülbül kimi sızıldayıb qaynadım, amma,
Şeir yazıb nəğmə qoşdum adam dilində.

## ŞƏHİD QARDAŞIM

Xalqın kəsiləndə bəndi-bərəsi,
Ucaldı göylərə igid nərəsi...
Söylədin, - canımdı yurdun dərəsi,
Dağı, daşı canım, - şəhid qardaşım!

Varıq bu həyatda, yalan deyilik,
Düşmənlər əlində talan deyilik,
Biz ölüb gedirik, - qalan deyilik,
Qalıb yaşayanım, - şəhid qardaşım!

Dözdük neçə ili, saydıq hər günü,
Tanıdıq bu yurdun, elin mərdini,
Torpaq həsrətini, vətən dərdini
Çəkib daşıyanım, - şəhid qardaşım!

Keçdin qayaları, qırdın qəfəsi,
Sənin nəfəsindi xalqın nəfəsi,
Bu sonsuz istəyi, eşqi, həvəsi,
Axı, necə danım, şəhid qardaşım?!

Gülsün arzuların, gəlsin baharın,
Çoxdan əsəbimiz çəkilib tarım...
Sənsən bu dünyada arxam, vüqarım,
Mənim adım-sanım, şəhid qardaşım!